AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

Q Ə R A R

“Daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imzadan istifadə ilə bağlı tarif”in və “Daxili idarəetmə proseslərinin elektron sistemləri üçün Data Mərkəzindən istifadə ilə bağlı tariflər”in təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 10.3-2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imzadan istifadə ilə bağlı tarif” təsdiq edilsin (1 nömrəli əlavə).
2. “Daxili idarəetmə proseslərinin elektron sistemləri üçün Data Mərkəzindən istifadə ilə bağlı tariflər” təsdiq edilsin (2 nömrəli əlavə).
3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 may 2022-ci il

№ 210

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 25 may
tarixli 210 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

1 nömrəli əlavə

Daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imzadan istifadə ilə bağlı tarif

İstifadəçi adı	E-imza (3 illik), ƏDV daxil (manatla)
Daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri	16

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 may tarixli 210 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

2 nömrəli əlavə

Daxili idarəetmə proseslərinin elektron sistemləri üçün Data Mərkəzindən istifadə ilə bağlı tariflər

1. Avadanlıqların Data Mərkəzində yerləşdirilməsi üzrə:

Sıra №-si	Xidmətin adı	Ölçü vahidi	Miqdar	Aylıq xidmət haqqı, ƏDV-siz (manatla)
1.	Dayaq	47U, 3 kVts	1	2,800.00
2.	Enerji sərfiyyatı (dayaq)	kVt saat	1	Elektrik enerjisindən istifadə ilə bağlı qüvvədə olan mövcud tarifə uyğun olaraq
3.	İnfrastruktur xərcləri (dayaq)	kVt saat	1	0.34
4.	Rəf	1U, 150 Vts	1	250.00

2. Data Mərkəzinin avadanlıqlarından istifadə üzrə:

“Premium” paketi			
Paketin növü	S	M	L
vCPU	4	4	8
RAM (GB)	16	32	32
HDD-10K (GB)	80	100	120
Aylıq xidmət haqqı, ƏDV-siz (manatla)	172.20	237.00	262.80

“Standart +” paketi			
Paketin növü	S	M	L
vCPU	2	2	2
RAM (GB)	6	8	16
HDD-10K (GB)	40	60	80
Aylıq xidmət haqqı, ƏDV-siz (manatla)	89.10	107.40	154.20

“Standart” paketi			
Paketin növü	S	M	L
vCPU	1	1	1
RAM (GB)	2	4	6
HDD-10K (GB)	20	30	40
Aylıq xidmət haqqı, ƏDV-siz (manatla)	42.30	61.20	77.10

3. Data Mərkəzinin avadanlıqlarından istifadə həcminin artırılması üzrə:

Sıra №-si	**Xidmətin adı**	**Aylıq xidmət haqqı, ƏDV-siz (manatla)**
1.	HDD, 1GB (10K)	0.24
2.	HDD, 1GB (7.2K)	0.17
3.	HDD, 1GB (SSD)	0.50
4.	CPU, 1 ədəd	22.50
5.	RAM, 1 GB	15

_____